



**O publisist, peşəkar mətbuat nümayəndəsi olmaqla yanaşı, həm də maarifçilik ideyalarını təbliğ edən vətənpərvər ziyalı idi. Dövrünün mətbu orqanları olan "Molla Nəsrəddin" jurnalında, "Həyat", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni İqbal", "Açıq söz" qəzetlərində ardıcıl şəkildə maarifləndirici yazıları dərc edilirdi. Xalqın maariflənməsi, elm-biliyə sahib olması sahəsində yorulmadan çalışan ziyalı bütün fəaliyyətini məhz bu istiqamətə kökləmişdir.**

# Onun maarifçi ideya və fikirləri bu gün də aktuallığını qoruyur

Ömər Faiq Lömən oğlu Nemanzadə 24 dekabr 1872-ci ildə Axalsıx qəzasının Azğur kəndində sadə kəndli ailəsində dünyaya göz açmışdır. Bir neçə il molla məktəbinə gedəndən sonra fikrini dəyişərək yenicə açılmış rus məktəbinə daxil olmuşdur. Atası onu Qori Müəllimlər Seminariyasında oxutmaq istəsə də anasının təkidi ilə 1882-ci ildə İstanbula gedərək "Fateh" məktəbində təhsilini davam etdirmişdir. Təbiət elmlərinə olan marağı onu daha sonra "Darüş-şəfəq" məktəbinə gətirmiş, 1891-ci ildə təhsilini bitirərək Qalata poçt və teleqraf idarəsində əmək fəaliyyətinə başlamışdır. O, burada nəşr olunan qəzet və jurnallar vasitəsilə Avropadakı demokratik ruhlu türk inqilabçı şairlərin bədii yaradıcılığı ilə yaxından tanış olmuş, bir müddət sonra isə sultan istibdadına qarşı gizli fəaliyyət göstərən gənclərə qoşulmuşdur.

1894-cü ildə yenidən doğma kəndinə dönmüşdür. İnqilabi dünyagörüşlü ziyalı kimi yetişmiş Ömər Faiq maarif və mədəniyyət sahəsində Azərbaycanın demokratik ruhlu vətənpərvər oğullarına qoşulub ömrünü xalqın azadlığı uğrunda mübarizəyə sərf etmişdir. Şəkidə ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs demişdir. M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" pyesini səhnə üçün hazırlamış, Müsyö Jordan rolunda özü çıxış etmişdir. 1896-cı ildə xəstəliyi ilə əlaqədar Gəncəyə, oradan da Hacıkəndə getmiş və burada İstanbuldan gəlmiş Məhəmməd Əfəndi ilə tanış olmuşdur. Axıskada milli məktəb açmaq fikrinə düşən Ömər Faiq Nemanzadə Tiflis maarif müdirinə ərizə yazır. Müdir isə ona belə cavab verir: "Lazımsa, şkolada (məktəbdə) oxudun, ayrıca türk məktəbi olmaz". Tiflisdən Müfti və Şeyxülislama şikayətlənib "Rusiyadakı türklərlə Türkiyədəki rum və ermənilər arasında hüquqca böyük bir fərq olduğunu" söyləmişdir. Ömər Faiq Nemanzadə milli hüquqları müdafiə məqsədilə "hər millətin mədəniyyətə və maariflənməsinə haqqı vardır və bu haqqı hər yerdə, hər zaman saxlamalıdır", - demişdir.

1898-1900-cü illərdə Şəkidə Came məktəbində müəllim işləyən Ömər Faiq dini dərsləri azaldaraq əsasən, hesab, coğrafiya, tarix və türk dili fənlərini tədris etmişdir. 1900-cü ildə ictimai fəaliyyətlə aktiv məşğul olmaq üçün Bakıya gəlmişdir. Burada milli məktəblərin azlığından narahat olan Ömər Faiq Nemanzadə elə həmin il Şamaxıya getmiş, milli məktəb yaratmağa çalışmışdır. Tarix, coğrafiya, hesab və türk dilindən dərs demiş, 1902-ci ildə isə yenidən Tiflisə qayıtmışdır.

İlk kitablarından olan "Dəvəti-nəşri-asərə" də ölkədə baş verən ictimai-siyasi hadisələrin təsiri altında yazılmışdır. Ömər Faiq Nemanzadənin publisistik fəaliyyəti təkcə əməkdaşı olduğu "Şərqi-rus" qəzeti, "Molla Nəsrəddin" jurnalı ilə məhdudlaşmamışdı. Siyasi cəhətdən yetkin, mübariz publisist kimi dövrün ən nüfuzlu qəzet və jurnallarında tez-tez çıxışlar etmiş və bir çox siyasi mübarizələrdə şəxsən iştirak edərək təbliğat aparmışdı.

Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və Firudin bəy Köçərli kimi türk dilinin təmizliyi və qorunması uğrunda mübarizə aparan ziyalılar arasında Ömər Faiq Nemanzadənin xüsusi yeri olmuşdur. Bu baxımdan, onun əsərləri türk dilinin öyrənilməsi üçün çox əhəmiyyətli mənbədir. O, dil haqqında yazırdı: "Bir millətin yaşaması dili ilədir. Dil yoxsa, millət yoxdur. Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin yeganə nişanıdır, millət sevgisinin birinci əlamətidir". Bütün ömrünü türkçülük ideologiyasına sərf edən Ö.F.Nemanzadənin dil probleminə ciddi münasibəti təsadüfi deyildi. Çünki XX əsrin siyasi proseslərinin başlıca problemlərindən biri də türk dili məsələsi idi. Türk dilinin ortaq dil kimi istifadə olunması və qorunması Ömər Faiq Nemanzadənin bütün əsərlərinin əsas mövzusu olaraq diqqət çəkmişdir.



1903-cü il mart ayının 30-da nəşrə başlamış Məhəmməd ağa Şahtaxtlının baş mühərriri olduğu "Şərqi-rus" qəzetində Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Səməd ağa Qayıbov, Üzeyir Hacıbəyov və Yusif Əfəndizadə ilə bir yerdə işləmişdir. Qəzet Qafqazda ilk nəşr olunan siyasi və ictimai gündəlik türk qəzeti olmuşdur. 1905-ci ildə "Şərqi-Rus" bağlandıqdan sonra Ömər Faiq Nemanzadə dostu Cəlil Məmmədquluzadə ilə birlikdə qəzetin mətbəəsini alıb "Qeyrət" adı ilə dəyişdirərək, burada dövrlə, zamanla hesablaşan kitablar nəşr etməyə başlamışdır. Bununla da Azərbaycan ədəbi-mədəni həyatında yeni bir mərhələ yaranmış, "Mollanəsrəddinçilər" adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoymuşdur. "Qeyrət" mətbəəsinin ən böyük uğuru "Molla Nəsrəddin" jurnalının nəşri idi. Ömər Faiq Nemanzadənin yaradıcılığının ən cəsarətli, ən məhsuldar və təhlükəli dövrü bundan sonra başlamışdır. O, təkcə bu jurnalda deyil, həmin dövrdə çap olunan "Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat", "Əkinçi" və digər qəzet və jurnallarda çıxış etmiş, XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixində parlaq səhifələr yazan ziyalılarımızdan olmuşdur.

Ömər Faiq Nemanzadə 1920-ci ildə Gəncə Ziraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləmiş, 1920-1921-ci illərdə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru olmuş, inqilab illərində dəfələrlə həbs edilmişdir. 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlmişdir.

1927-ci ildə təqaüdə çıxan Ömər Faiq Nemanzadə "Xatirələrim" üzərində çalışırmış. Lakin müəllif bu kitabı bitirə bilməmişdir. Dövrünün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi, Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanı olmuşdur. 1937-ci ilin yayında Axalsıxda ata yurdunda dincələrkən iyulun 16-da rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs edilmiş, 3 ay sonra Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki "Üçlüyün" qərarı ilə 10 oktyabrda güllələnmişdir. 1958-ci ildə Gürcüstan SSR Ali məhkəməsinin qərarı ilə ölümündən sonra bəraət almışdır.

Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, tanınmış maarifçi və ictimai xadim, görkəmli publisist Ömər Faiq Nemanzadənin ideya və fikirləri 150 ildən çoxdur maarif və elm sahəsində öz dəyərini və qiymətini qoruyub saxlayır.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**